1.qxd 30.12.2016 10:59 Page 1


# HACIQABUL

№ 24 (658)

30 noyabr 2016-cı il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti




# Azərbaycanda aparılan islahatlar beynəlxalq miqyasda təqdir olunur

***Prezident İlham Əliyevin respublikamızın rayon və şəhərlərinin iqtisadi inkişafı üçün yorulmadan həyata keçirdiyi və tək bugünə deyil, gələcəyə hesablanmış tədbirlər, həmçinin bu kontekstdə hökumətin qarşısında qoyduğu vəzifələrin davamlı və uğurlu icrası artıq müsbət nəticələrini verməkdədir. Söhbət ilk növbədə məhz regionların inkişafı istiqamətində əldə olunan nailiyyətlərdən gedir.***

Prezident İlham Əliyevin qarşıya qoyduğu əsas məqsədlərdən biri iqtisadiyyatda qazanılan uğurların miqyasını daha da genişləndirmək, o cümlədən regionları sosial-iqtisadi baxımdan inkişaf etdirməkdir. Bu hədəflərə çatmaq üçün isə regionlarda mövcud potensialdan istifadənin səmərəsini artırmaq, iqtisadiyyatın və sənayenin ayrı-ayrı sahələrinin, aqrar sektorun, turizmin tərəqqisini təmin etmək, bir sözlə, kompleks inkişafa nail olmaq əsas vəzifələrdir. Bu istiqamətdə həyata keçirilən hər bir dövlət proqramı regionların inkişafında yeni mərhələnin başlanğıcını qoyub, mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, kənd təsərrüfatının inkişafına yol açıb. Beləliklə, ötən 12 ildə ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilib, iqtisadiyyatın diversifikasiyası təmin olunub.

Xüsusilə qeyd etməliyik ki, əldə olunan uğurlar müxtəlif amillərlə yanaşı, sahibkarlığın dəstəklənməsi sayəsində mümkün olub. Ona görə bu gün Azərbaycanda ümumi daxili məhsul istehsalında özəl sektorun xüsusi çəkisi aydın hiss olunur. Bütövlükdə ötən 12 ildə sahibkarlığın inkişafına güzəştli şərtlərlə 1,7 milyard manatdan çox kredit verilib, Azərbaycana 200 milyard manat sərmayə qoyulub. Bunun nəticəsidir ki, Azərbaycan iqtisadiyyatının neft sektorundan asılılığının azalması, yeni zavod və fabriklərin istifadəyə verilməsi sahibkarlığın inkişafı ilə əhəmiyyətli dərəcədə bağlıdır. Bu mənada indiyədək dotasiya almayan şəhər və rayonların siyahısına baxsaq, görərik ki, bu bölgələr daha çox sənayeləşmiş zonalardır. Məsələn, ölkədə fəaliyyət göstərən əsas sənaye müəssisələri Bakı, Sumqayıt və Mingəçevirdə cəmləşib.

O cümlədən, dövlətin aqrar sahənin inkişafına diqqəti davamlıdır. Odur ki, əldə olunan müsbət makroiqtisadi göstəricilərdə kənd təsərrüfatının öz payı var. Həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün zəmin yaradılıb. Dövlət fermerlər üçün bir sıra güzəştlər müəyyən edib. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, vergilərdən azad edilmişlər. Fermer və sahibkarlar güzəştli şərtlərlə kredit, toxum, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan gübrə, texnika, damazlıq mal-qara almaq imkanlarına malikdirlər. Eyni zamanda əkin sahəsinin becərilməsində istifadə olunan yanacaq üçün dövlət subsidiyalar ayırır. Bunların nəticəsi olaraq həyata keçirilən tədbirlər aqrar sahədə sahibkarlar üçün əlverişli fəaliyyət mühitinin yaradılmasına, fermerlərin dövlət qayğısı ilə əhatə olunmasına, onların gəlirinin artırılmasına və rəqabətədavamlı kənd təsərrüfatı məhsulları istehsalının artımına yol açıb. Abşeronda və İmişlidə isə sənaye sahələri ilə yanaşı, aqrar sferada da uğurlu nəticələr var. Təhlillər onu göstərir ki, bu rayonlardan toplanan vergilər onların öz büdcələrinin formalaşmasında əsas rol oynayır. Ona görə bu şəhər və rayonların artıq neçə ildir ki, dövlətin dotasiyasına ehtiyacı yoxdur.

## Bu sayımızda:


Təbiət nə qədər şıltaqlıq etsə də, insanlar pambıq tarlalarından uzaq düşmədilər... Səh.2

Arxiv, tariximizdir, keçmişdən gələn işıqdır Səh.2

Balaca qəhrəmanımızın böyük uğurları Səh.3



Dövlət-din münasibətlərinin qarşılıqlı əlaqəsi Səh.3


## 2016-cı il dekabr ayı üçün Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatında vətəndaşların qəbul günləri

| Sıra №-si | Vəzifəsi | Həftənin günləri | Qəbul saatı |
|---|---|---|---|
| 1 | İcra Hakimiyyətinin Başçısı | I | 15:00 |
| 2 | İcra Hakimiyyəti Başçısının birinci müavini | II | 14:00 |
| 3 | Başçının müavini-İctimai, siyasi və humanitar məsələlər şöbəsinin müdiri | III | 14:00 |
| 4 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | IV | 14:00 |
| 5 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanı ilə iş şöbəsinin müdiri | V | 14:00 |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri | VI | 10:00 |

**Qeyd: Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları:**
(02120) 4-41-91, (02120) 4-41-58

# Təbiət nə qədər şıltaqlıq etsə də, insanlar pambıq tarlalarından uzaq düşmədilər...

***Qızılı payızın yurdumuza qədəm qoyduğu ilk günlərdən hava şəraitində müşahidə olunan qeyri-sabitlik aqrar sektorda çalışan insanların qayğılarını iki qat artırdı. Xüsusən də pambıqçılıqla məşğul olan insanlar daha çox narahatçılıq keçirdilər. Bu da təbiidir.İl ərzində çəkdiyin əziyyətin bəhrəsinin göz görə-görə məhv olması heç kəsə xoş deyil.***

Bizim Hacıqabul rayonunda da az narahatçılıq keçirməyiblər. Axı onlar da ilin əvvəlindən dövlət başçısının ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsi ilə bağlı təşəbbüsünə qoşulublar. Özü də el birliyi ilə... Onlar ilk günlərdən inanıblar ki hansı işə ki, ürəklə, sevgi ilə yanaşsan, mütləq sonda mükafatını alacaqsan.

Ölkə başçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyev bütün sahələrdə olduğu kimi bu gün kənd təsərrüfatının idarə edilməsində də ulu öndər Heydər Əliyev kursuna yenilməz sədaqət nümayiş etdirir. Aqrar sahəni müasir tələblər səviyyəsində inkişaf etdirmək üçün torpaq mülkiyyətçilərinə verilən davamlı dövlət dəstəyi indi kəndlinin təknəsini bol çörəkli etmiş, onu torpağa daha möhkəm tellərlə bağlamışdır. Dövlət başçısının pambıqçılığı inkişaf etdirmək, bu sahədə itirilmiş şöhrəti yenidən qaytarmaq barədəki çağırışı bu gün bütün bölgələrdə birmənalı şəkildə razılıqla qarşılanmışdır. Prezidentin çağırışına ürəkdən qoşulan rayonumuzun kənd əməkçiləri bu il sahələrdə bol məhsul yetişdirərək iki aydan çoxdur ki, ağ örpəkli tarlalarda yetişdirdikləri məhsulu həvəslə toplayırlar.





Bildiyimiz kimi rayon üzrə bu il 526 hektar münbit ərazidə fermerlərimiz pambıq əkmişlər. Padarda 400 ha, Qarasuda 40 ha, Meynimanda 25 ha, Abdulabadda 15 ha, Ələtlidə 16 ha, Muğanda 30 ha sahədə pambıq əkilmişdir. Bu günlərdə pambıq yığımının son mərhələsində vəziyyətlə maraqlanmaq üçün Padar, Qarasu, Abdulabad ərazilərində olduq, məhsul toplanışında fədakarlıq göstərən qəhrəman qızlarımızın, hünərvər kənd sakinlərinin sücaətlərinin şahidi olduq. Padarın pambıq tarlalarında qəsəbə sakinlərindən İlhamə Qasımova hər gün adambaşına 80-100 kq, İlhamə İbrahimova 100 kq, Nərminə Feyzullayeva 90 kq, Fuad Əkbərov 80 kq, Uruzular Mahmudova 60 kq, Bəxtilə Ağayeva 150 kq, Səyyarə İsgəndərova 155 kq, Hürü Həsənova 125 kq, Səidə Eyyubova 200 kq pambıq yığırlar. Padar qəsəbəsi üzrə icra nümayəndəsi Mətləb Səfərov bildirdi ki, bu günə kimi Padar sakinləri sahələrdən 725 ton 480 kq məhsul toplamışlar.

Qarasu kəndində icraçı İslam Hüseynovun başçılığı ilə fermerlər 109 tondan çox pambıq toplamışlar. Gözəl Zeynalova, Elnurə Ağakişiyeva, Lətifə Vəliyeva, Sünbül Nəcəfova hər gün sahələrdən adambaşına 100-120 kq məhsul toplayırlar. Abdulabad kəndində bələdiyyə sədri, icraçi İsmayıl İsmayılovla birlikdə ağ örpəyə bürünmüş tarlada həvəslə pambıq toplayan qızlara yaxınlaşır, onlara "Əlləriniz var olsun!"- deyirik. Səkinə Rzayeva, Nigar Xankişiyeva, Ülviyyə Məmmədova, Qumru Süleymanova, Zahidə Fərziyeva hər gün adama 80-100 kq pambıq yığırlar. Qızların çöhrələrində əməyin, məhsul toplanışının yaratdığı sevincdən doğan təbəssüm var. Fədakar pambıqçı qızların üzlərində bu təbəssümü, sevinci gördükdə Prezident İlham Əliyevin bu il sentyabrın 17-də Sabirabad rayonunda Sosialist Əməyi Qəhrəmanı Fatma Hüseynova ilə pambıq tarlasında görüşünü xatırladım. Fatma xanım həmin görüşdə cənab Prezidentə pambıqçılığı bərpa etdiyi üçün özünün və rəfiqələrinin minnətdarlığını çatdırdı:

-Allah Sizə ömür versin. Bax, bu qızların çörəyidir, həyatıdır. Vallah hamısı sevinir.

Eşidən də deyir: Allah Prezidentin köməyi olsun ki, pambıqçılığı bərpa etdi, təzədən qaytardı".

Bu günə kimi Hacıqabul rayonu üzrə sahələrdən 905 tondan çox pambıq toplanmışdır ki, bu da ümumi yığılacaq məhsulun (947 ton) 95,6 faizi deməkdir. Rayon üzrə yığılan ümumi məhsulun 476 tonu texnikanın gücü ilə yığılmışdır.

Hacıqabul rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarovun tapşırığı ilə icra aparatının məsul işçiləri, rayon kənd təsərrüfat idarəsinin rəisi Nurbala Mirzəyev, bitkiçilik sektorunun baş məsləhətçisi Əliabbas Məmmədov, aqronom Gülmirzə Süleymanov hər gün pambıq əkilən və yığılan ərazilərə baş çəkir, yığımın gedişatında yaranan problemlərin yerindəcə həll olunmasında fermerlərə köməklik edirlər.

Pambıqçılarımız havaların xoş keçməsindən istifadə edib məhsul yığımı planını yerinə yetirmək əzmindədirlər.Onlar yaxşı bilirlər ki, torpaq hər zaman ona tərəf əyiləni qaldırıb. Əlini dolu, alnını açıq edib.

Bu dəfə də belə oldu. Uzunmüddətli yağışlardan sonra günəşin səmada parlaması hər kəsi yenidən ağ örpəkli tarlalara qaytardı, hər kəs təbiətin onlara verdiyi bu fürsəti dəyərləndirməyə çalışdı və istədiyinə nail oldu.

***Nazim Fətixanoğlu***

# Arxiv, tariximizdir, keçmişdən gələn işıqdır



Vüsal Nağıyev,
rayon Dövlət Arxivinin müdiri

***Arxiv insanların ümid yeri, haqq-ədalətin bərpa olunması, kimininsə keçmişinə işıq salmaq üçün bir mənbədir.***

Uzun illər bundan öncə arxivlərə ögey münasibət göstərilmiş, arxiv sənədlərinin saxlanılması, şəraiti ilə maraqlanılmamış, bir çox sənədlər kimlərinsə marağına uyğun olaraq bilərəkdən məhv edilmiş, baxımsızlıq üzündən yararsız hala düşmüşdür.

1990-cı illərin əvvəllərində ölkədə hökm sürən xaos, anarxiya, özbaşınalıq arxiv sənədləri ilə hər kəsin istədiyi kimi davranması bu gün vətəndaşların sosial hüquqlarının təminatında çətinliklər yaradır. Bəzi təşkilatlar fəaliyyətlərini dayandırsalar da sənədlərini ya məhv etmiş, ya da bilərəkdən arxivə təhvil verməmişdir.

Ulu öndərimiz Heydər Əliyev hakimiyyətdə olduğu illərdə arxivlərə münasibət dəyişilmiş, arxiv binaları bərpa edilmiş, sənədlərin saxlanma şəraiti yaxşılaşmışdır.

Bu gün ulu öndərimizin siyasətini uğurla davam etdirən ölkə prezidenti İlham Əliyev də ölkəmizin davamlı və dinamik inkişafı üçün səylərini əsirgəmir.Yeni inşa olunan zavod və fabriklər, təhsil, mədəniyyət, səhiyyə ocaqları, çəkilən yeni yollar bunun bariz nümunəsidir. Prezidentimizin apardığı sosial-iqtisadi inkişaf arxivlərdən də yan keçməmişdir. Yaraşıqlı, müasir üslubda, dünya sdandartlarına cavab verən, müasir texnika və avadanlıqlarla tam təchiz olunmuş Milli Arxiv İdarəsi buna sübutdur.

Artıq ölkəmizin regionlarında da arxivlər üçün yeni binalar tikilir, bərpa olunur, müasir tipli avadanlıqlarla təmin olunur. Bizim rayonumuzda da arxivə münasibət dəyişilmişdir.Belə ki, uzun illər rayon arxivi idarəsi köhnə, uçuq-sökük uyğunlaşdırılmış bir binada fəaliyyət göstərmiş, sənədlərin səliqəli və etibarlı saxlanılması üçün heç bir şərait olmamışdır. Bir neçə il bundan öncə isə bizim də rayon arxivi daha yeni və etibarlı binaya köçürülmüş, sənədlərin səliqəli və etibarlı mühafizəsini təmin etmək üçün stellajlarla, kompüterlə, yeni müasir avadanlıqlarla təmin olunmuşdur. Bununla da rayonumuzun arxiv sənədlərinə yeni ömür verilmişdir.

Arxiv sənədlərindən istifadə həm vacib, həm də məsuliyyət tələb edir. Tədqiq etdiyimiz sosial-hüquqi sorğuların çətinliyindən və sənədlərin arxivdə olub-olmamasından, onların vəziyyətindən, sorğuların həcmindən asılı olaraq müraciətlərin tədqiqinə bir neçə gün vaxt sərf olunur. Fəaliyyətini dayandırmış idarə, müəssisə, təşkilatların sənədlərinin tam şəkildə arxivə təhvil verilməməsi işimizdə bəzən əngəllər yaradır.

Ayrı-ayrı vətəndaşlardan əldə etdiyimiz məlumatlar əsasında söhbətlər və danışıqlar aparaaraq bəzi sənədlərin arxivə gətirilməsinə çalışırıq. Çünki arxiv bizim tariximizdir, keçmişimizdən gələn bir işıqdır.

***Respublikanın bütün rayonlarında olduğu kimi, Hacıqabul rayonunda da 1999-cu ildən yerli bələdiyyə qurumları fəaliyyətə başlamışdır.Belə ki, Hacıqabul rayonunda dövlət reyestrində qeydiyyatdan keçmiş 15 bələdiyyə orqanı fəaliyyət göstərir.Rayonda fəaliyyət göstərən bələdiyyə qurumlarından 1-i şəhər, 3-ü qəsəbə, 11-i isə kənd bələdiyyələridir.***

# 2016-cı ilin yanvar-sentyabr aylarında Hacıqabul rayonunda bələdiyyələrin fəaliyyəti

Hacıqabul rayonunda bələdiyyələrin büdcəsi əsasən fiziki şəxslərin torpaq və əmlak vergisindən, bələdiyyə mülkiyyətində olan əmlakın özəlləşdirilməsi və icarəsindən daxil olan gəlirlərdən, dövlət büdcəsinin dotasiya vəsaitlərindən və sair gəlirlərdən formalaşır. 2016-cı ilin yanvar-sentyabr ayları ərzində rayon bələdiyyə qurumları tərəfindən 116,7 min manatlıq müxtəlif növ yerli vergilər və xidmət haqları toplanmışdır.Ötən ilin müvafiq dövrünə nisbətən bələdiyyələrin büdcəsinə daxilolmalar 30,4 faiz artmışdır.2016-cı ilin doqquz ayı ərzində bələdiyyə büdcəsinə daxilolmaların 19,4 min manatı və ya 16,6 faizi vergilərdən, 60,6 min manatı və ya 51,9 faizi bələdiyyə əmlakının özəlləşmə və icarəsindən olan gəlirlərdən, 36,7 min manatı və ya 31,5 faizi isə dövlət büdcəsi tərəfindən ayrılmış dotasiyadan formalaşmışdır.Qeyd etmək lazımdır ki, cari ilin doqquz ayında bələdiyyər tərəfindən fiziki şəxslərdən 14,0 min manatlıq torpaq vergisi, 5,4 min manatlıq əmlak vergisi yığılmışdır.Ötən ilin müvafiq dövrünə nisbətən vergilərdən daxilolmalar 47,6 faiz azalmış, özəlləşmə və icarədən gəlirlər isə 3,8 dəfə artmışdır.İl ərzində dövlət büdcəsindən bələdiyyələrə ayrılan dotasiyaların həcmi dəyişməmişdir.

Cari ilin doqquz ayında rayonda fəaliyyət göstərən bələdiyyələrin 120,5 min manatlıq büdcə xərcləri qeydə alınmışdır.Belə ki, 2016-cı ilin yanvar-sentyabr aylarında yığılan vergi və rüsumların 73,7 min manatı və ya 61,2 faizi bələdiyyə qurumlarının saxlanılmasına, 4,7 min manatı və ya 3,9 faizi sosial müdafiə və sosial təminat xərclərinə, 17,0 min manatı və ya 14,1 faizi mənzil-kommunal təsərrüfat xərclərinə, 23,6 min manatı və ya 19,6 faizi nəqliyyat və rabitə xərclərinə, 1,5 min manatı və ya 1,2 faizi isə digər xərclərə sərf olunmuşdur.Ötən ilin müvafiq dövrü ilə müqayisədə rayon bələdiyyələrinin büdcə xərcləri ümumilikdə 41,4 faiz artmışdır.Bilavasitə, bələdiyyələrin saxlanma xərcləri 34,5 faiz, mənzil-kommunal təsərrüfat xərcləri 4,9 faiz, bələdiyyərin nəqliyyat və rabitə xərcləri isə 3,1 dəfə artmışdır.

2016-cı ilin yanvar-sentyabr aylarında rayonun bələdiyyə qurumlarında 40 nəfər muzdlu işçi çalışmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 nəfər və ya 7,0 faiz azdır.Ötən ilin müvafiq dövrü ilə müqayisədə rayonun bələdiyyə qurumlarında çalışanların hesablanmış əmək haqqı fondu 0,6 faiz artaraq 54,4 min manat təşkil etmişdir. Rayonun bələdiyyə qurumlarında çalışan bir işçiyə düşən nominal orta aylıq əmək haqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,2 faiz artaraq 151,6 manat təşkil etmişdir.Bu dövrdə bələdiyyələrdə çalışanların 10 nəfərini və yaxud 25,0 faizini qadınlar təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bələdiyyələrdə çalışan qadınların sayı 11,1 faiz artmışdır.2016-cı ilin doqquz ayında bələdiyyə qurumlarında çalışan qadınlara 9,4 min manat əmək haqqı hesablanmışdır.Bələdiyyədə çalışan bir qadın işçiyə düşən orta aylıq nominal əmək haqqı 116,0 manat təşkil etmişdir.Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bələdiyyə qurumlarında çalışan qadınlara hesablanmış əmək haqqı fondu 0,4 min manat və ya 0,8 faiz, bir qadın işçiyə düşən orta aylıq nominal əmək haqqı isə 0,3 faiz artmışdır.

2016-cı ilin əvvəlinə rayon ərazisində fəaliyyət göstərən bələdiyyələrin mülkiyyətində olan əsas fondların balans dəyəri 56,7 min manat olmuşdur.

***Rayon Statistika İdarəsi***

1.qxd 30.12.2016 10:59 Page 3



# Dövlət-din münasibətlərinin qarşılıqlı əlaqəsi

***Müasir dövrdə müxtəlif dinlər və mədəniyyətlər arasında əlaqələr, dini dəyərlərə qayıdış tendensiyalarının güclənməsi demokratik cəmiyyətdə dinin statusuna, onun ictimai şüurdakı yerinə, habelə dövlət-din münasibətləri mövzusuna aktuallıq gətirir, dünyəvi cəmiyyətdə dinin yeri və rolu məsələsini daim diqqət mərkəzində saxlanmasını zəruri edir.***

Zaman keçdikcə cəmiyyətin inkişafı ilə əlaqədar olaraq, din ictimai şüurda öz mövqeyini daha da möhkəmləndirmiş, insan həyatının bütün sahələrini əhatə edən ehkamları ilə ictimai münasibətlərin tənzimlənməsində aparıcı rola malik olmuşdur.

Hazırda dünya dövlətlərinin böyük əksəriyyəti dünyəvi qanunlarla idarə edilir. Buna baxmayaraq, dini dəyərlərə yüksək qiymət verilir, onlara cəmiyyətin mənəvi tələbatı kimi baxılır. Hətta, bir çox demokratik ölkələrdə dövlətin nəzarəti ilə ordu kimi strateji əhəmiyyət kəsb edən bir sahədə hərbiçilərin mənəvi ehtiyaclarının təmin edilməsi, döyüş ruhunun qaldırılması, vətənpərvərlik hisslərinin təlqin edilməsi, əxlaqi xüsusiyyətlərin aşılanması üçün ruhanilərin köməyindən istifadə olunur.

Dünyəvi qanunlar əsasında idarə olunan ölkələrdə zaman-zaman dövlət-din münasibətlərinin hansı əsaslarla üzərində qurulması və tənzimlənməsi, hər iki subyektin səlahiyyətlərinin hüdudları, qarşılıqlı fəaliyyətin mümkünlüyü və s. suallar meydana çıxmışdır. Din sahəsi həm də ideoloji mahiyyət daşdığı üçün dövlətin ona xüsusi diqqəti və qayğı göstərməsi təbii qəbul olunmalıdır. Çünki hər bir dindar eyni zamanda dövlətin bərabərhüquqlu vətəndaşı, cəmiyyətin bir üzvüdür.

Yetmiş ildən artıq Sovet İttifaqının tərkibində yaşayan başqa xalqlar kimi Azərbaycanda ateist düşüncənin güclü təsiri altında idi. İnsanlara tanrının olmadığı, dinin mövhumat və xurafat xarakter daşıdığı təbliğ olunurdu. Dini ayin və mərasimlər yerinə yetirən insanlar təqib edilir, repressiyalara məruz qalırdılar.

Azərbaycan xalqı dövlət müstəqilliyi əldə etdikdən sonra din sayəsində müəyyən problemlərlə qarşılaşdı. Problemlər həm obyektiv, həm də subyektiv xarakter daşıyırdı. Əhalinin dini məlumatsızlığından istifadə edən bəzi din adamlarının dini cəmiyyətə özlərinə sərf edən qaydada təqdim etmələri, dinin mənəvi-əxlaqi dəyərlərini, əsas mahiyyətini kənara qoyaraq, maddi dəyərlərin əldə olunmasında vasitəyə çevirmələri nəticə etibarilə ziyalıların haqlı narazılıqlarına səbəb olurdu. Lakin bu illər ərzində əhalinin dini savadlılıq səviyyəsinin artması ona münasibətdə yeni mövqeyin yaranmasına səbəb olmuşdur. Dinin əsl mahiyyətinin istinad etdiyi qaynaqlardan öyrənilməsi dini-mənəvi dəyərlərə qayıdış tendensiyasını gücləndirmişdir.

Sovet dövrü totalitar rejimdə din sahəsində mövcud olan qadağalar altında yaşamış insanların yeni situasiyanı necə dəyərləndirəcəkləri, ümumiyyətlə, cəmiyyətin dinə meylli hissəsinin yeni dövrə uyğunlaşması məsələsi aktuallıq baxımından digər sahələrdən heç də geri qalmırdı. Burada ən vacib məqam milli-mənəvi dəyərlərin qorunub saxlanması, dini həyatda baş verən proseslərin dövlətin diqqət və qayğısından kənarda qalmaması, həssas məsələlərə dövlətin nəzarətinin təmin edilməsi idi.

XX əsrin doxsanıncı illərinin ikinci yarısında artıq ictimai-siyasi həyatda sabitlik təmin olunduqdan, dövlətçilik üçün təhlükə törədən qüvvələr zərərsizləşdirildikdən sonra Ulu Öndər Heydər Əliyev mövcud ağır hərbi-siyasi şəraitdə bərpa olunmuş milli dövlətçiliyi qoruyub saxlamaq üçün Qarabağda atəşkəsin əldə edilməsinə, uğurlu neft strategiyasının həyata keçirilməsinə və ölkə iqtisadiyyatının sürətli inkişafına nail oldu və bu gün Qafqazın lider dövlətinə çevrilmiş qüdrətli Azərbaycan Respublikasının əsasını qoydu.

Milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsinə çevrilmiş İslam dininə, eləcə də digər din və mədəniyyətlərə böyük ehtiram və qayğı ilə yanaşılmağa başlandı, onların cəmiyyətin sabitliyinə və rifahına xidmət edən bütün fəaliyyətləri üçün imkanlar yaradıldı və bu proses bu gün də davam edir.

Azərbaycan xalqı tarixən öz tolerantlığı ilə fərqlənmişdir. Bu ölkənin ərazisində müsəlmanlar, xristianlar, yəhudilər və digər dinlərin nümayəndələr, eləcə də müxtəlif millətlərə mənsub olan insanlar dinc yanaşı yaşamışdır və yaşayır.

Azərbaycan xalqının tolerantlığından müxtəlif dövrlərdə sui-istifadə olunsa da, o bu keyfiyyətini itirməmiş, bu gün də yaşadır. Lakin, tolerantlıq ənənələrinə zərbə vurmağa çalışan, zərərli dini təriqətləri təbliğ edərək özünə tərəfdar toplamağa səy göstərən müəyyən xarici dövlətlərin və onların təsiri altında olan qrupların fəaliyyəti dövlət-din münasibətlərinə təsirsiz ötüşmüşdür.

Ona görə də tolerantlıq ənənələrinin qorunub saxlanması istiqamətində düşünülmüş, ardıcıl və qətiyyətli tədbirlər həyata keçirməsi dövrün vacib fəaliyyət sahələrindən olmuşdur.

Dinin insanlara əmin-amanlıq gətirməsi, sülh və sabitliyin bərqərar olmasında mühüm rol oynaması, cəmiyyətdaxili münasibətlərin tənzimlənməsinə müsbət təsir göstərməsi, əxlaqi-mənəvi dəyərlərin qorunmasına stimul verməsi, ailənin əhəmiyyətini diqqət mərkəzində saxlaması, ata-anaya, qohum-əqrabaya, insanlara, bəşəriyyətə məhəbbət təlqin etməsi xüsusiyyətləri onun mahiyyətindədir. Bütün bunlarla müqayisədə dindən dağıdıcı məqsədlərlə istifadə olunması təəssüf doğurur.

Din amilindən bəzən müxtəlif qanunsuz fəaliyyətlərin reallaşdırılmasında vasitə kimi istifadə olunursa, bu onun mahiyyəti ilə deyil, yanlış təbliğ edilərək iqtidara gəlmək niyyətidir. Dinlə əlaqələndirilən hər hansı problem təhlil olunarkən onun səbəbi dinlərin istinad etdiyi müqəddəs mətnlərin əsasında axtarılmamalı, müasir cəmiyyətdə dini ehkamların anlaşılması və tətbiq edilməsi baxımından araşdırılır. Dünyəvi qanunlar əsasında idarə olunan dövlətlərdə zaman-zaman dövlət-din münasibətlərinin hansı əsaslar üzərində qurulması və tənzimlənməsi sualı meydana çıxmışdır.

Azərbaycan Respublikası dövləti dini qurumlarla ibadət və mərasimlərini yerinə yetirmək üçün dini məkanlara himayədarlıq və onlardan istifadə etmək hüququ verir, mənəvi-əxlaqi dəyərlərin təbliğində insanpərvərlik prinsiplərinə zidd fəaliyyət göstərməyən, insanların ləyaqətini alçaltmayan, onlar arasında ayrı-seçkiliyə, nifrətin yaranmasına gətirib çıxarmayan fikirlərin yayılmasına heç bir məhdudiyyət qoymur.

Dövlətin dini etiqad azadlığını təmin etmək məqsədilə dindarlara və dini qurumlara yaratdığı şərait düzgün qiymətləndirilməli, sui-istifadəyə yol verilməməlidir.

Cəmiyyətdə nüfuz sahibi olan ruhanilərin üzərinə bu işdə böyük məsuliyyət düşür. Ruhanilər insanların dini maarifləndirilməsində yaxından iştirak etməli, gəncliyin özünəməxsus cəhətləri nəzərə alınaraq, yanlış istiqamətdə atılan addımların fəsadları haqqında onları məlumatlandırmalıdırlar. Əhalinin dini baxımdan maarifləndirilməsində boşluqlara yer verilməməli, dindarlara dini biliklərlə yanaşı, dövlətçilik, vətənpərvərlik hissləri də aşılanmalıdır.

Dövlətin dünyəvi prinsiplər əsasında idarə edilməsi, qanunla dinin dövlətdən ayrılığı dinə qarşı məhdudiyyətlərin tətbiq demək deyildir.

Ölkəmizdə hər insanın öz inancında sərbəst olmasına şəraitin yaradılmasına əsas verən hüquqi baza mövcuddur və bu baza çərçivədə hər iki subyektə aid əsas prinsiplərə xələl gətirmədən, qarşılıqlı fəaliyyətin təmin edilməsi ən ümdə vəzifələrdəndir. Dövlət xalqın ümumi fikir və arzularını əks etdirdiyindən milli-mənəvi sərvətlərin, o cümlədən onun ayrılmaz hissəsinə çevrilmiş dini dəyərlərin qorunub saxlanması, zərərli yad təsirlərə məruz qalmasının qarşısını alınması onun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Din sahəsinin ideoloji xarakteri nəzərə alınarsa, dinin ölkə əhalisinə düzgün, mahiyyətinə uyğun təbliği, bu sahədən destruktiv qüvvələrin öz məqsədləri naminə istifadə etməsinə yol verilməməsi, eləcə də bir sıra qabaqlayıcı tədbirlərin həyata keçirilməsinin vacibliyi anlaşılar.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Respublikada müxtəlif dini etiqadlar arasında qarşılıqlı anlaşma, dövlət orqanları tərəfindən həlli tələb olunan məsələlərdə dini qurumlarla yardım göstərilməsi, ayrı-ayrı konfessiyalar arasında dözümlülük münasibətlərinin daha da inkişaf etdirilməsi, dini maarifləndirmənin aparılması və dövlətin müəyyən etdiyi digər vəzifələrin icra olunması istiqamətində uğurlu tədbirlər həyata keçirir.

Beləliklə, dövlət-din münasibətləri qarşılıqlı əlavə müstəvisində tənzimlənməli, dövlət dini icmaların etiqad azadlığı üçün şərait yaratmalı, onlara qayğı göstərməli və fəaliyyətinə əsassız müdaxilələrin qarşısını almalıdır. Bu halda dövlət-din münasibətləri qarşılıqlı anlaşma prinsipləri üzərində qurular, dövlətçilik daha da möhkəmlənər, ölkədə sabitlik əmin-amanlıq bərəqərar olar.

***Elvin Şıxəliyev,***
***RİHB-nın İctimai siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı***

***Azərbaycan Respublikası Təhsil Nazirliyi Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi tərəfindən, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin ekspert dəstəyi ilə "Ekoloji təmiz məhsul və aqrobiomüxtəliflik" mövzusunda 17-18 noyabr 2016-cı il tarixlərində Bakı Biznes Mərkəzində yekun müsabiqəsi keçirilmişdir.***

# "Ekoloji təmiz məhsul və aqrobiomüxtəliflik" mövzusunda məktəblilərin I Respublika Ekoloji Müsabiqəsi yekunlaşdı



Respublika tədbirində 9 nominasiya - "Meyvəçilik", "Arıçılıq", "Heyvandarlıq", "Meşə məhsulları", "Tərəvəzçilik", "Subtropik bitkilər", "Gülçülük", "Dənli bitkilər", "Balaca fermer" nominasiyaları üzrə 1500 iştirakçıdan 91 məktəbli yekun mərhələsində iştirak etmək hüququ qazanmışdı. Həmin iştirakçılar içərisində rayonumuzun ümumtəhsil məktəblərinin şagirdlərindən 5 nəfəri müsabiqənin final mərhələsində iştirak etmişdir.

Tədbirdə Təhsil Nazirliyinin Məktəbdənkənar Fəaliyyətinin Təşkili Şöbəsinin müdiri Vasif Məmmədov, Kənd Təsərrüfatı Nazirliyi Bitkiçilik Şöbəsinin müdir müavini Seymur Səfərli, Milli Məclis Təbii Ehtiyatlar Ekologiya və Energetika şöbəsinin sektor rəhbəri Şamil Hüseynov, Ukraynanın Azərbaycandakı səfiri Aleksandr Mischenko qaliblərin diplom və hədiyyələrini təqdim etmişlər.

"Ekoloji təmiz məhsul və aqrobiomüxtəliflik" mövzusunda məktəblilərin I Respublika Ekoloji Müsabiqəsinin final mərhələsində Hacıqabul rayonu üzrə iki şagirdimiz qalib gələrək II, III yerlərə layiq görülmüşdür.

"Meyvəçilik" nominasiyası üzrə şəhər 4 saylı tam orta məktəbin IX sinif şagirdi Kamilla Teymurova II yerə, "Meşə məhsulları" nominasiyası üzrə şəhər 8 saylı humanitar fənlər təmayüllü məktəb-lisyein VIII sinif şagirdi Aytac Əliyeva III yerə layiq görülmüşdür.

Qaliblər diplom və hədiyyələrlə mükafatlandırılmışdır.

***Günel Mustafayeva,***
***rayon Təhsil Şöbəsinin metodisti***

# Balaca qəhrəmanımızın böyük uğurları



***Günümüzə sevinc, saflıqları, sadəlikləri ilə gözəllik bəxş edən, həyatımıza günəş kimi doğan, ömrümüzün bəzəyi, gözlərimizin nuru olan uşaqlar bizim gələcəyimiz, sabahımızdırlar. Hər kəsin ürəyinə yol tapan balalardan biri də balaca qəhrəman Qırımxan Ağaverdiyevdir. Qırımxan 2009-cu ildə Hacıqabul şəhərində anadan olub. Şəkil çəkmək, şahmat oynamaq, rəqs etmək, şeir demək sevimli məşğuliyyətlərindəndir. Öz yaşıdları arasında ağlına, məntiqinə görə seçilən balaca istedad bu il məktəbə ilk qədəmlərini atıb. Qırımxanın 6 yaşı var. Amma əldə etdiyi uğurlar çox böyükdür. Necə deyərlər, yaşından da, başından da...***

Qırımxanın maraq dairəsi çox genişdir. Rəqs məktəbinə gedir, milli və əcnəbi rəqsləri çox məharətlə ifa edir. Şahmat hazırlığına gedən balaca şahmatçı istər stolüstü oyunlarda, istər də oynadığı digər idman oyunlarında qalib olmağı qarşısına məqsəd qoyur. Rəssamlıq sahəsində də xüsusi istedadı olan bu rəngsaz nağıl və cizgi film qəhrəmanlarını, cəmiyyətdə və ətraf mühitdə baş verən hadisələri ssenarili şəkildə uşaq düşüncəsi ilə ağ vərəqə köçürür. Yaxşı şeir deyir. Natiqlik qabiliyyəti sahəsində ilk diplomunu beş yaşı olmamış alıb. "Azərbaycanın böyük şəxsiyyəti" mövzusunda keçirilən şeir müsabiqəsində söylədiyi "Ulu öndər" şeiri ilə birinci diplomunu alan Qırımxanın sonrakı uğurları davamlı olub. Belə ki, ikinci diplomu Xocalı faciəsinin 22-ci ildönümü münasibətilə keçirilən "Xocalı, ay Xocalı" mövzusunda şeir müsabiqəsində söylədiyi "Xocalım" şeiri ilə alıb.

Müəllimlərinin və ailəsinin Qırımxana olan ümidləri böyükdür. Onlar bu balaca zəka sahibinin daha böyük uğurlara imza atacağına inanırlar.

Bu ay Qırımxan üçün fərqli aydır. Bu ayda yeni yaşına qədəm qoyan Qırımxan üçün bu ilki doğum günü xüsusilə yaddaqalan olacaq. Çünki bu doğum günündə Qırımxanı sevənlər sırasına onu çox sevən doğmaları il yanaşı, ona dərs deyən sevimli müəllimləri, onunla çiyin-çiyinə durmaqdan qürur duyan sinif yoldaşları da qoşulacaq. Balaca dərs qəhrəmanı, hərtərəfli qabilliyətə malik olan bu zəka sahibini doğmaları, müəllimləri, onu sevənlər adından təbrik edir, qədəm qoyduğu bu məktəb yolunu müvəffəqiyyətlə başa vurmağı arzulayırıq.

***Səadət Kərimova***

# Uşaqların hüquqları daim qorunmalıdır

" Uşaq hüquqları aylığı" tədbirləri şəhər 10 saylı tam orta məktəbdə də çox maraqlı keçdi. 20 oktyabr -20 noyabr tarixlərində məktəbimizdə keçirilən bir sıra tədbirlər - inşa müsabiqəsi, rəsm müsabiqəsi, dəyirmi masa, idman yarışları şagirdlərimizdə xoş əhval-ruhiyyə, özünəhörmət hissi aşıladı.Xüsusən siniflərarası voleybol yarışı daha çox diqqət çəkdi. Qaliblər müəyyənləşdirildi. Məktəb rəhbərləri və müəllimlərin iştirakı ilə keçirilən bu yarışlarda şagirdlər öz hüquqlarını necə müdafiə edəcəkləri barədə fikirlərini ifadə etdilər.Onlara lazımı tövsiyələr verildi. Bu aylıqda fəal iştirak edən şagirdlər I,II, III və həvəsləndirici yerləri tutdular və onların bacarıqları qiymətləndirildi.

***Təranə Quliyeva,***
***şəhər 10 saylı tam orta məktəbin UBR-i***

1.qxd 30.12.2016 10:59 Page 4


# HACIQABUL

№ 24 (658) 30 noyabr 2016-cı il


## Uşaq hüquqları və vəzifələri

***20 oktyabr-20 noyabr tarixlərində "Uşaq hüquqları aylığı"çərçivəsində məktəbimizdə müxtəlif tədbirlər keçirilmişdir. Bəs uşaqlar öz hüquqlarını bilirlərmi?***



"Sən öz hüquqlarını bilirsənmi?" mövzusunda məktəbimizdə dəyirmi masa keçirilmişdir. Məktəbin müəllimləri G.İbişova, G.Şahkərəmovanın "Uşaq hüquqları konvensiyasının müddəaları" haqqında keçirdiyi diskussiya böyük marağa səbəb oldu. IX sinif şagirdləri uşaq hüquqları konvensiyası haqqında maraqlı fikirlər söylədilər və göstərdilər ki, konvensiya uşaqların yaşaması və inkişafı üçün zəruri olan minimum standartları müəyyən edir.

Müzakirələrdə şagirdlərdən Yasəmən Qəhrəmanova, Vüsalə Salmanova, Ziyarət Məmmədova, Ləman Abdullayeva, Ramiz Kərimovun fikirləri daha maraqlı oldu.

Uşaq hüquqlarına həsr olunmuş rəsm sərgisi isə həm müəllimlərin, həm də şagirdlərin böyük marağına səbəb olmuşdur. Şagirdlər uşaq hüquqlarına aid öz fikirlərini təsvir etdikləri rəsmlərdə əks etdirdilər. Şagirdlərdən Anaxanım Kərimova və Ramidə Kərimovanın çəkdikləri rəsmlər xüsusi marağa səbəb oldu.

Hər bir insan öz hüquqlarını qorumağı bacarmalıdır. Dövlət hüquqların qorunmasına təminat verir. Biz müəllimlər də çalışırıq ki, hər bir uşaq hansı hüquqlara malik olduğunu və onların qorunması yolunu bilsin, başqalarının hüquqlarına da hörmətlə yanaşsın.

***Xatirə Rüstəmova,***
***şəhər 6 saylı orta məktəbin təşkilatçısı***

## Talassemiya xəstəliyi nədir?



Şəhər 9 saylı tam orta məktəbdə şagirdlərin maarifləndirilməsi məqsədilə "Talassemiya xəstəliyi nədir?"mövzusunda tədbir keçirildi. Məktəbin kimya-biologiya müəllimi S.Məmmədova talassemiya xəstəliyinin mənşəyi barədə şagirdlərə məlumat verdi. Talassemiyanın irsi qan xəstəliyi olduğu və valideynləri tərəfindən övlada ötürüldüyünü qeyd etdi.

Xəstəliyin fəsadları barədə məktəbin VIII sinif şagirdi Elcan Cəbiyev, IX sinif şagirdi Şəbnəm Muradova məlumat verdilər. Sonra xəstəliyin fəsadlarını özündə əks etdirən, bu xəstəliyə tutulan insanların müşahidəsi mövzusunda videoçarx nümayiş etdirildi.

***Könül Şahkərəmova,***
***şəhər 9 saylı tam orta məktəbin laborantı***

Həmin mövzu ilə əlaqədar şəhər 2 saylı tam orta məktəbdə də maarifləndirici tədbir keçirildi. Məktəbin kimya-biologiya müəlliməsi Tünzalə Baxşıyeva talassemiya xəstəliyinin aşkarlanması, profilaktikası, müalicə olunması, qarşısının alınması ilə bağlı tədbir iştirakçılarına məlumat verdi. Şagirdlərdən Aynur Qənbərova "Talassemiyanın profilaktikasının gücləndirilməsi və talassemiyalı xəstələrə göstərilən tibbi yardımın keyfiyyətinin daha da yüksəldilməsi" mövzusunda, Simuzər Namazlı "Talassemiyanın müasir müalicə üsullarının tətbiqi yolu ilə xəstəliyin fəsadlarının qarşısının alınması" mövzusunda, Fidan Cəbrayılova "Əhali arasında talassemiyanın profilaktikası sahəsində geniş maarifləndirmə işinin həyata keçirilməsi" mövzusunda məruzə ilə çıxış etdilər.

Sonra xəstəliyin törətdiyi fəsadlardan bəhs edən videoçarx nümayiş etdirildi və tədbir iştirakçılarına "Talassemiya" mərkəzinin ünvanı paylanıldı.



***Kübra Quliyeva,***
***şəhər 2 saylı tam orta məktəbin müəllimi***

### Tükənmədi

Sevgi dolu ömür yolu
Yetdim bitib tükənmədi.
Qəlbim kədərlərlə dolu,
Yedim bitib tükənmədi.

Sevgim ürəyimdə qaldı,
Axdı gözlərimdə dondu.
Dedim, bəlkə bu da sondu,
Susdum bitib tükənmədi.

Söylədim dosta, tanışa,
Ürək alışa-alışa.
Qaldım danışa-danışa
Sözüm bitib tükənmədi.

Göylər uca əlim yetmir,
Yerlərdə dərdlərim bitmir.
Sevgim ürəyimdə itmir,
Dözdüm bitib tükənmədi.

### Ürək açır

Səni heç gözləmirəm,
Daha sevmirəm demək.
Sənsiz şənlənib gülmək,
Böyük bir yalan olar.

Sən yanımda deyilsən,
Nə gecələr, nə gündüz.
Sorğusuz, heç bir sözsüz,
Vuran ürəyimdəsən.

Mənə sevmirəm dedin-
Sən də sevmə bir daha.
Kədərlə mən əkizəm,
Səni sevəndən bəri.

Qələm donur, tutulur,
Bəlkə də yazma-deyir.
Süzülür dilə şeir,
Ürək açır sevgisin.

***Hədiyyə Sabir qızı,***
***Yazıçılar Birliyinin üzvü, Qızıl Qələm mükafatı laureatı***

## Elan

Hacıqabul rayon Aqrar İslahat Komissiyasının 17 mart 1998-ci il tarixli qərarı ilə Güləliyev Abbasəli Güləli oğlunun adına verilmiş JN-0005, kodu 91008038 olan torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Navahı kənd sakini Qarayev Balaxan Bəybala oğlunun adına verilmiş JN-0541, kodu 91006005 olan torpağın mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Rayon Aqrar İslahat Komissiyasının 05 iyul 2004-cü il tarixli qərarı ilə Axundov Sabir Qəzənfər oğlunun adına verilmiş JN- 0663, kodu 91000018 olan torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Navahı kənd sakini Qarayev Alim Bəybala oğlunun adına verilmiş JN-0543, kodu 91006005 olan Torpağın mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Navahı kənd sakini Cəbrayılov Hacıbala Vəkil oğlunun adına verilmiş JN-0545, kodu 91006005 olan torpağın mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Muğan qəsəbə sakini Cəfərov Talış Şükür oğlunun adına verilmiş JN-0422, kodu 91000018 olan torpağın mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Qarayev Bəybala Hacalı oğlunun adına verilmiş JN-0544, kodu 91006005 olan torpağın mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi rayon Suvarma Sistemləri İdarəsinin rəisi İbrahim İbrahimova əzizi
**Səfərin**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elnur Əmiraslanov və kollektivi Afiq Kərimova əzizi
**Səfura xanımın**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elnur Əmiraslanov və kollektivi rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Coşqun Əmirova qardaşı
**İlqarın**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Elnur Əmiraslanov və kollektivi həkim Hafiz və Firuzə Bəşirovlara əzizləri
**Mahmud müəllimin**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Elnur Əmiraslanov və kollektivi İbrahim İbrahimova əzizi
**Səfərin**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

"Hacıqabul" qəzetinin redaktoru Xuraman Feyruz qızı və şəhər İƏD üzrə nümayəndə Laləzar İbrahimova İbrahim İbrahimova əzizi
**Səfərin**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Gülnarə Baxşıyeva,Gülşən Babayeva və rayon Gigiyena və Epidemiologiya Mərkəzinin kollektivi Coşqun Əmirova qardaşı
**İlqarın**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Rayon Polis Şöbəsinin kollektivi iş yoldaşları Vahid Səmidova oğlu
**İsmayılın**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Nazim Fətixanoğlu, İsabala Cəbrayılov, Vaqif İbrahimbəyli, Ramiz Səmədov
**Rafiq Bədəlovun**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Rayon Suvarma Sistemləri İdarəsinin kollektivi idarənin rəisi İbrahim İbrahimova əzizi
**Səfərin**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov və kollektivi rayon Suvarma Sistemləri İdarəsinin rəisi İbrahim İbrahimova əzizi
**Səfərin**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Mərkəzi rayon Xəstəxanasının baş həkimi Beydulla Qarayev və kollektivi İbrahim İbrahimova əzizi
**Səfərin**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Mərkəzi rayon Kitabxanasının kollektivi Abdulləhəd Abdullayevə həyat yoldaşı
**Xanımın**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Pirsaat Qış Otlaqlarının Suvarılması İdarəsinin rəisi Mafisəd Cəfərov və kollektivi İbrahim İbrahimova əzizi
**Səfərin**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Rayon Baytarlıq İdarəsinin müdiri Şahmurad Aslanov və kollektivi İbrahim İbrahimova əzizi
**Səfərin**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Şahmurad Aslanov və kollektivi rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Coşqun Əmirova qardaşı
**İlqarın**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.


**HACIQABUL**

**Baş redaktor:**
Xuraman Feyruzqızı

**Həmtəsisçi:**
Qəzetin jurnalist kollektivi
Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son dakika MMC" mətbəəsində çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200